11-12 sentyabr tarixlərində “British Council” təşkilatı Azərbaycan Müəllimlər İnstitutu və onun filiallarında çalışan İngilis dili Müəllimlərinin Təkmilləşdirilməsi layihəsinin (İNSETT) V - sonuncu seminarını keçirib.

Iki illik layihə başa çatdırılıb. Layihənin məqsədi AMİ və onun 11 filialında çalışan ingilis dili metodist və müəllimlərinin bilik, bacarıqlarının artırılması, dərslik, eləcə də bu dilin tədrisindəki müasir təlim üsulları və istiqamətlərini nəzərə almaqla təkmilləşdirməkdən ibarət olub.

Məlumat üçün qeyd edirik ki, “British Council” və Təhsil Nazirliyi arasında 5 fevral 2007- ci ildə imzalanmış Qarşılıqlı Anlaşma Memarandumuna əsasən İngilis dili Müəllimlərinin Təkmilləşdirilməsi layihəsi (İNSETT) həmin ilin yanvar ayından etibarən AMİ və onun filiallarını əhatə edib. Seçilmiş 22 nəfər ingilis dili üzrə metodist və müəllim mərhələlərlə keçirilən 5 seminarda iştirak edib.

Sonuncu seminar AMİ- də ingilis dili müəllimlərinin yeni təlim üsulları üzrə təqdimatları əsasında keçirilib, 22 nəfər ingilis dili müəlliminə sertifikatlar təqdim olunub.

Təqdimat mərasimində “British Council”in Azərbaycandakı direktoru Nikol lə Os de Laluvye, Təhsil Nazirliyinin əməkdaşı və AMİ-nin nümayəndələri iştirak edib.